| **Terms and Conditions for Digital Payment Application** | **Rəqəmsal ödəniş tətbiqi üzrə Şərtlər və Qaydalar** |
|---|---|
| **1. The Subject** | **1. Predmet** |
| These “Terms and Conditions” regulate the rules and conditions under which the Customer may add payment cards provided by the bank to the Application, connect them to the Application, and conduct payment transactions through the Application. | Bu “Şərtlər və Qaydalar” Müştərinin bank tərəfindən ona təqdim olunan ödəniş kartlarını Kart əsaslı ödəniş aləti vasitəsi ilə Tətbiqə əlavə etməsi, qoşulması və Tətbiq vasitəsi ilə ödəniş əməliyyatlarının həyata keçirilməsi qaydalarını və şərtlərini tənzimləyir. |
| **2. Definitions** | **2. Anlayışlar** |
| 2.1. Bank: “Azerbaijan Industry Bank” OJSC, operating under banking license No. 241, dated September 28, 1996; | 2.1. Bank: 28 sentyabr 1996-cı il tarixli, 241 nömrəli bank lisenziyası əsasında fəaliyyət göstərən “Azərbaycan Sənaye Bankı” ASC |
| 2.2. Customer: An individual who has a bank account and a payment card with the Bank and connects to the Application to conduct payment transactions; | 2.2. Müştəri: Bankda hesabı və ödəniş kartı olan, ödəniş əməliyyatlarını icra etmək məqsədi ilə Tətbiqə qoşulan fiziki şəxs; |
| 2.3. Application: Software supporting the payment method for tokenized cards; | 2.3. Tətbiq: Tokenləşmiş kartlar üzrə ödəniş metodunu dəstəkləyən proqram təminatı; |
| 2.4. Card-based payment instrument (hereinafter referred to as the “instrument”): a payment instrument that allows the payer to conduct payment transactions using a card, including a card and a payment instrument (a mobile device, including a telephone or other equipment) with a payment application installed; | 2.4. Kart əsaslı ödəniş aləti (bundan sonra “alət”): ödəyiciyə kartla ödəniş əməliyyatlarının aparılmasına imkan verən ödəniş aləti, o cümlədən kart, ödəniş tətbiqi yüklənmiş ödəniş vasitəsi (mobil cihaz, o cümlədən telefon və ya digər avadanlıq); |
| 2.5. Contactless payment: an operation performed by bringing a device with a radio frequency identifier installed inside it closer to the POS terminal; | 2.5. Təmassız ödəniş: daxilində radiotezlikli identifikator quraşdırılmış alətin POS-terminala yaxınlaşdırılması ilə aparılan əməliyyat; |
| 2.6. Authentication: a procedure that allows the payment service provider to verify the identity of the payment service user or the validity of the use of the payment instrument, including the payment service user's personalized security data; | 2.6. Autentifikasiya: ödəniş xidməti təchizatçısına ödəniş xidməti istifadəçisinin kimliyini və ya ödəniş alətinin, o cümlədən ödəniş xidməti istifadəçisinin fərdiləşdirilmiş təhlükəsizlik məlumatlarının istifadəsinin etibarlılığını yoxlamağa imkan verən prosedur. |
| | 2.7. POS-terminal: nağdsız ödənişlərin (o cümlədən təmassız ödənişlərin) aparılması və/və ya nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq, o |

| | |
|---|---|
| 2.7. POS terminal: equipment intended for making non-cash payments (including contactless payments) and/or receiving cash, including a mobile device equipped with the necessary software (a telephone set capable of receiving mobile (cellular) services in the general telecommunications networks of mobile operators and other end equipment). | cümlədən lazımi proqram təminatı ilə təmin edilmiş mobil cihaz (mobil operatorların ümumistifadəli telekommunikasiya şəbəkələrində mobil (sellülar) xidmət alan (xidmət almağa yararlı olan) telefon aparatı və digər son avadanlıq). |
| **3. Rules for connecting to and using the application**<br>3.1. The Customer enters payment card data manually or by scanning it in accordance with the procedure established by the Bank by downloading the application to the instrument or by accessing the Web page using other electronic means.<br>3.2. The Bank identifies the entered card details and provides the Customer with the opportunity to review these “Terms and Conditions”.<br>3.3. If the Customer agrees to these “Terms and Conditions,” the Bank sends a one-time password (OTP) to the Customer’s mobile number to verify the entered card details. The Customer gains access by entering OTP. When the payment card is successfully verified, its virtual image is created in the Application.<br>3.4. When the Customer performs each payment transaction, he/she activates the instrument using the PIN code he set on the instrument, including fingerprint or other biometric data, and brings it closer to the POS terminal. If there are sufficient funds on the Customer’s payment card to execute the transaction, the transaction is executed. If there are insufficient funds, the transaction cannot be executed and is rejected. | **3. Tətbiqə qoşulma və ondan istifadə qaydaları**<br>3.1. Müştəri tətbiqi alətə yükləməklə, habelə digər elektron vasitələrdən istifadə edərək Veb səhifəyə daxil olmaqla, Bank tərəfindən müəyyən olunmuş prosedura uyğun olaraq ödəniş kartı məlumatlarını manual və ya skan edərək daxil edir.<br>3.2. Bank daxil edilmiş kart məlumatlarını eyniləşdirir və Müştəriyə bu “Şərtlər və qaydalar”la tanış olmaq imkanı verir.<br>3.3. Müştəri bu “Şərtlər və qaydalar”la razılaşdığı halda, Bank daxil edilmiş kart məlumatlarının verifikasiyası məqsədi ilə Müştərinin mobil nömrəsininə birdəfəlik şifrə (OTP) göndərir. Müştəri şifrəni daxil etməklə çıxış imkanı əldə edir. Ödəniş kartı müvəffəqiyyətlə verifikasiya edildikdə, Tətbiqdə onun virtual təsviri formalaşır.<br>3.4. Müştəri hər ödəniş əməliyyatını icra etdiyi zaman alətdə özünün təyin etdiyi Pin kodu, o cümlədən barmaq izi və ya digər biometrik məlumatlardan istifadə etməklə aləti aktivləşdirir və POS-terminala yaxınlaşdırır. Müştərinin ödəniş kartında əməliyyatın icra olunması üçün kifayət qədər vəsait olduğu halda əməliyyat icra olunur, vəsait kifayət etmədikdə isə əməliyyatın icrası mümkün olmur və rədd edilir. |

| | |
|---|---|
| 3.5. The Application displays information about executed payment transactions (date, time, transaction amount, seller’s name, etc.). | 3.5. Tətbiqdə icra edilmiş ödəniş əməliyyatları haqqında məlumatlar (əməliyyatın tarixi, saatı, məbləği, satıcının adı və s.) əks olunur. |
| **4. Rights and obligations of the parties** | **4. Tərəflərin hüquq və vəzifələri** |
| 4.1. The Customer's rights and obligations: | 4.1. Müştərinin hüquq və vəzifələri: |
| 4.1.1. To make payment transactions using the Application if the payment card details are verified successfully; | 4.1.1. Ödəniş kartı məlumatları müvəffəqiyyətlə verifikasiya edildiyi halda Tətbiqdən istifadə etməklə ödəniş əməliyyatları aparmaq; |
| 4.1.2. To notify the Bank's "137" Call Center in case of any query or objection regarding any transaction made through the Application. A query or objection may be submitted within 30 days of the relevant transaction date. | 4.1.2. Tətbiq vasitəsilə aparılmış hər hansı əməliyyatla bağlı sorğu və etirazı olduqda, Bankın “137” Çağrı Mərkəzi vasitəsilə bildirmək. Sorğu və ya etiraz müvafiq əməliyyatın həyata keçirildiyi gündən sonrakı 30 gün ərzində verilə bilər. |
| 4.1.3. To comply with the rules, security requirements, and authentication procedures established by the Bank when using the Application; | 4.1.3. Tətbiqdən istifadə zamanı Bank tərəfindən müəyyən edilmiş qaydalara, təhlükəsizlik tələblərinə və autentifikasiya prosedurlarına riayət etmək; |
| 4.1.4. To ensure the confidentiality of the Customer's username, password, one-time codes, electronic signature, and other access means, and not to allow their transfer to third parties; | 4.1.4. Müştərinin özünə məxsus istifadəçi adı, şifrə, birdəfəlik kodlar, elektron imza və digər giriş vasitələrinin məxfiliyini təmin etmək və onların üçüncü şəxslərə ötürülməsinə yol verməmək; |
| 4.1.5. To immediately inform the Bank in the event of unauthorized access to the Application, a security breach, or suspicious transactions, including if the instrument is lost or stolen. | 4.1.5. Tətbiqə icazəsiz giriş, təhlükəsizlik pozuntusu və ya şübhəli əməliyyatlar aşkar edildikdə, o cümlədən alət itirildikdə və ya oğurlandıqda Banka dərhal məlumat vermək. |
| 4.2. The Bank's rights and obligations: | 4.2. Bankın hüquq və vəzifələri**:** |
| 4.2.1. To ensure the Customer's access to the Application if the payment card information is entered correctly; | 4.2.1. Ödəniş kartı məlumatları düzgün daxil edildiyi halda Müştərinin Tətbiqə girişini təmin etmək; |
| 4.2.2. In cases where the payment card entered by the Customer has expired or is blocked, including when a security breach is detected, to refuse to verify the card information and deny the Customer's access to the Application; | 4.2.2. Müştəri tərəfindən daxil edilən ödəniş kartının müddəti bitdiyi, bloklandığı hallarda, o cümlədən təhlükəsizlik pozuntusu aşkar edildikdə kart məlumatlarının verifikasiyasından imtina edərək, Müştərinin Tətbiqə girişini rədd etmək; |

| | |
|---|---|
| 4.2.3. In cases where there are suspicions that the operations carried out by the Customer are related to money laundering and to the terrorist financing, to suspend the use of the payment card in the Application, including blocking operations, as well as to apply certain limits or restrictions, taking into account the type and volume of operations;<br>4.2.4.In the event of an error during the verification of the payment card, including when it is impossible to send a one-time password (OTP) to the Customer's mobile number, direct the Customer to the "137" Call Center through the Application | 4.2.3. Müştəri tərəfindən həyata keçirilən əməlliyyatların cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyələşdirilməsi ilə əlaqəli olduğuna dair şübhələr yarandıqda Tətbiq üzrə ödəniş kartının istifadəsini dayandırmaq o cümlədən əməliyyatları bloklaşdırmaq, habelə əməliyyatların növünü, həcmini nəzərə almaqla müəyyən limitlər və ya məhdudiyyətlər tətbiq etmək;<br>4.2.4. Ödəniş kartının verifikasiyası zamanı xəta yaranarsa, o cümlədən Müştərinin mobil nömrəsininə birdəfəlik şifrə (OTP) göndərilməsi mümkün olmadığı halda, Tətbiq üzərindən Müştərinin "137" Çağrı Mərkəzinə birbaşa yönləndirilməsini təmin etmək. |
| **5. Responsibility of the Parties**<br>5.1. The Customer must take measures to keep his/her identification data, including card data, confidential, ensure their security, and not disclose them to third parties when conducting transactions through the Application. The Bank shall implement measures stipulated in the relevant agreements on the provision of banking services concluded between it and the Customer to ensure the security of information exchange. However, the Bank shall not be responsible for the confidentiality of the information declared and/or transmitted by the Customer to the Application related to his/her connection and use of the Application.<br>5.2. The Customer acknowledges that the orders given through the Application express his/her will and shall be personally responsible for the legal and financial consequences arising from the execution of these orders.<br>5.3. The Bank shall not be responsible for any damage to the Customer resulting from the loss, theft, or any other loss of the instrument | **5. Tərəflərin məsuliyyəti**<br>5.1. Müştəri Tətbiq vasitəsi ilə əməliyyatların aparılması zamanı özünə aid eyniləşdirmə məlumatlarının, o cümlədən kart məlumatlarının məxfi saxlanılması, təhlükəsizliyinin təmin edilməsi, habelə üçüncü şəxslərə verilməməsi ilə bağlı tədbirlər görməlidir. Bank məlumat mübadiləsinin təhlükəsizliyinin təmin edilməsi üçün Müştəri ilə arasında bağlanmış bank xidmətinin göstərilməsinə dair müvafiq müqavilələrdə nəzərdə tutulan mümkün tədbirləri həyata keçirir, lakin Müştərinin Tətbiqə qoşulması və istifadəsi ilə əlaqədər onun tərəfindən Tətbiqə bəyan edilən və/və ya ötürülən məlumatların məxfililiyin qorunmasına görə Bank məsuliyyət daşımır.<br>5.2. Müştəri Tətbiq vasitəsilə verdiyi sərəncamların onun iradəsini ifadə etdiyini qəbul edir və bu sərəncamların icrası nəticəsində yaranan hüquqi və maliyyə nəticələrinə görə məsuliyyəti şəxsən özü daşıyır. |

| | |
|---|---|
| in the Customer's possession, or from its illegal use by third parties. In such cases, the Customer shall be responsible for any damage to the Bank or third parties.<br>5.4. The Customer is liable for all claims, losses, and/or expenses arising from the use of the Application in violation of applicable legislation or internal bank regulations.<br>5.5. The Customer is responsible for all risks that may arise during the execution of transactions via the Application. | 5.3. Alətin itirilməsi, oğurlanması və ya hər hansı formada Müştərinin sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi nəticəsində sonuncuya dəymiş zərərə görə Bank məsuliyyət daşımır. Bu zaman Banka və ya üçüncü şəxslərə dəymiş zərərə görə Müştəri məsuliyyət daşıyır.<br>5.4. Müştəri Tətbiqdən qanunvericiliyə və ya bankdaxili qaydalara zidd istifadə edilməsindən irəli gələn bütün iddialar, zərərlər və/və ya xərclər üçün məsuliyyət daşıyır.<br>5.5. Tətbiq vasitəsi ilə əməliyyatların aparılması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət Müştərinin üzərinə düşür. |
| **6. Privacy Policy**<br>6.1. To ensure the effective use of the Application and to provide it to the Customer, the Bank has the right to obtain, use, and disclose the Customer's personal and bank-secret personal data in accordance with the procedure provided for by law. The Bank is responsible for maintaining the full confidentiality of personal data. However, the Bank is not liable for the dissemination of data due to the fault of the Customer or third parties, or for any loss (damage) incurred by the Customer or third parties because of this.<br>6.2. The Bank may disclose confidential data to third parties upon an official written request from international payment systems and authorized persons specified in the legislation, as well as in cases provided for by the legislation of the Republic of Azerbaijan. If these “Terms and Conditions” become invalid for any reason, the Bank shall ensure the protection of confidentiality under these “Terms and Conditions”, except as provided for by the legislation of the Republic of Azerbaijan. | **6. Məxfilik Siyasəti**<br>6.1. Tətbiqdən istifadənin səmərəli şəkildə təmin edilməsi və Müştəriyə təqdim edilməsi məqsədi ilə Bank, Müştərinin şəxsi və bank sirrini təşkil edən fərdi məlumatlarını əldə etmək, istifadə etmək və qanunvericiliklə nəzərdə tutulmuş qaydada üçüncü şəxslərə açıqlamaq hüququna malikdir. Bank, fərdi məlumatların tam məxfiliyinin qorunması üzrə məsuliyyət daşıyır. Lakin, Müştəri və ya üçüncü şəxslərin təqsiri nəticəsində məlumatların yayılmasına və bunun nəticəsində Müştəriyə və ya üçüncü şəxslərə dəymiş zərərə (ziyana) görə Bank məsuliyyət daşımır.<br>6.2. Bank məxfi məlumatları beynəlxalq ödəmə sistemlərinin və qanunvericilikdə müəyyən edilən səlahiyyətli şəxslərin rəsmi yazılı sorğusu, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzədə tutulan hallar olduqda üçüncü şəxslərə açıqlaya bilər. Bu “Şərtlər və qaydalar” hər hansı səbəbə görə qüvvədən düşdüyü halda Bank Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan hallar istisna olmaqla, bu |

| | |
|---|---|
| | “Şərtlər və qaydalar” üzrə məxfiliyin qorunmasını təmin edir. |